# “Əl-Fəcr”: “Azərbaycan 11 aprel tarixində həqiqi bir demokratiya bayramı yaşayıb”

*Aprelin 11-də Azərbaycanda keçirilmiş prezident seçkiləri ilə bağlı Birləşmiş Ərəb Əmirlikləri mətbuatında dərc edilmiş silsilə məqalələrin davamı olaraq ölkənin nüfuzlu ərəbdilli “Əl-Fəcr” qəzetində “Seçkilər şəffaf və demokratik şəraitdə keçirilib. Azərbaycanlılar seçkilərə İlham Əliyevin daxili və xarici siyasət sahəsindəki uğurlarına ümumxalq səsverməsi kimi baxırlar” sərlövhəli yeni məqalə dərc olunub.*



عربي ودولي

تونس: استشهاد جندي باشتباكات مع إرهابيين

10

عرس ديمقراطي شارك فيه ملايين الأذربيجانيين

الأذريون ينظرون الى الانتخابات كاستفتاء على نجاح سياسة إلهام علييف الداخلية والخارجية

AZƏRTAC xəbər verir ki, seçkiləri müşahidə etmək məqsədilə ölkəmizdə səfərdə olan qəzetin baş redaktoru Şərif Bassel seçkilərin şəffaf və demokratik şəraitdə keçirildiyini, Azərbaycan xalqının 8 namizəd arasından ən layiqlisini seçdiyini, xalqın ölkənin gələcəyinə səs verdiyini bildirib. O, bir neçə seçki məntəqəsində monitorinq apardıqlarını diqqətə çatdıraraq seçicilərin tam şəffaf şəraitdə səs verdiyini və müsahibə aldığı seçicilərin böyük əksəriyyətinin məhz hakim partiyanın namizədi İlham Əliyevə səs verdiyini bildirib, onların İlham Əliyevin ölkədə apardığı islahatlardan və yürütdüyü daxili və xarici siyasətdən razı qaldıqlarını vurğulayıb.

Müəllif yazır ki, İlham Əliyevə səs verən 70 yaşlı Heydər İsmayılov adlı seçici onun ölkədə sabitliyi qoruyub saxlayan, davamlı inkişafa aparan yeganə namizəd olduğunu bildirib. O, 25 il əvvəl sabitlik və təhlükəsizlik bilməyən Azərbaycanın hazırda tam təhlükəsizlik şəraitində yaşadığını, həyatın müxtəlif sahələrində mühüm nailiyyətlər əldə etdiyini və regionun qabaqcıl ölkəsinə çevrildiyini, bütün bunların məhz İlham Əliyevin apardığı siyasət nəticəsində baş verdiyini vurğulayır.

Müsahibə aldığı digər seçicilərin də, demək olar ki, hamısının İlham Əliyevə səs verdiyini bildirən müəllif Azərbaycanın 11 aprel tarixində həqiqi bir demokratiya bayramı yaşadığını oxucularının diqqətinə çatdırır, müşahidəçilər üçün yaradılmış əlverişli şəraitdən danışır və bir müşahidəçi kimi sanki seçicilərin prezident seçkilərində deyil, İlham Əliyevin daxili və xarici siyasət sahəsində əldə etdiyi uğurlara qiymət kimi təşkil olunmuş ümumxalq səsverməsində iştirak etmələri qənaətinə gəldiyini bildirir.

Azərbaycan.- 2018.-14 aprel- S.6.